Sevinc Nuruqızı

# Aysu və Ay



Evdə hamı yatdı. Təkcə gəlincik Saçlıdan başqa. Saçlı pəncərədən Aya baxırdı:

– Yemiş dilimi işıqlıdır. Yəqin, həm də dadlıdır. Aysu onu yemək istəyir.

Saçlı yerə hoppandı. Silkələyib bütün oyuncaqları oyatdı:

– Uşaqlar, durun. Aysu yemiş dilimi istəyir. Biz səmaya qalxıb, onu dostumuza gətirməliyik.

Hamı oyandı. Ayı, ördək, dovşan, tülkü, top, ipatdı kəndiri, fırfıra, rəngli karandaşlar, fincanlar, nəlbəkilər, çəngəllər, tikiş maşını, fil, timsah, Hacıyatmaz, pianino, uzunsaç gəlinciklər, diyircəkli araba, çəhrayı telefon, təyyarə. Aysunun bütün oyuncaqları durmuşdu. Ayı qış yuxusundan oyandığı üçün çox qəzəbli idi:

– Mən düz üç ay yatmalıyam. Qış yuxusuna getmişdim. Məni oyatdılar...

Saçlı onları tələsdirdi:

– Tez olun. Sonra yatarıq. Əlcəkləri geyinin, papaqları qoyun... Getdik.

Hər tərəf ağappaq qar idi. Saçlının təklifi ilə hamı cərgəyə düzüldü. Sıranın əvvəlində Hacıyatmaz, sonunda isə balaca qırmızı karandaş dayanmışdı. Saçlı əmr etdi:



– Sıraya düzülün! Tərpənməyin! Fikirləşin... Yemiş dilimini necə götürmək olar?

Timsah dilləndi:

– Mən tapdım. Kim uça bilirsə, o da gətirər. Məsələn, quş.

Quş sınıq qanadına baxdı:

– Aysu qanadımı sındırıb. Quşlar tək qanadla uça bilməzlər. Onu, ancaq fil xilas edə bilər. Xortumuna su doldurub yuxarı atar. Su da yemiş dilimini qopardıb salar.



Fil isti yerlərdə yaşamağa adət elədiyindən soyuqdan göyərmişdi:

– Aysu mənim dostumdur. Ona kömək etmək istəyərdim. Amma mümkün deyil. Çünki Aysu xortumuma tennis topu tıxayıb. Xortumum su püskürmür. Yemiş dilimini yalnız təyyarə gətirə bilər.

Təyyarə kövrəldi:

– Aysu burnumu qırıb. Burnum olmasa, mən havanı yarıb uça bilmərəm...

Pianino salamat qalmış dillərini tərpətdi:

– Daram...dar...ra...ram... Tapdıq... Fırfıra fırlanıb qarı bir yerə sovursun. Biz çoxlu qartopu düzəldək. Çəngəllər qartopuları üst-üstə yığsınlar. Olsun yekə bir dağ. Sonra fil bu dağın zirvəsinə çıxsın, xortumunu uzadıb yemiş dilimini götürsün. Qoyaq nimçəyə. Aparaq, Aysu yesin.





Hamı işləyirdi. Hacıyatmaz isə keşikdə durmuşdu. Yemiş dilimini oğurlamasınlar deyə, gözlərini göyə zilləmişdi. Birdən qar yağmağa başladı. Qar dənələri Hacıyatmazın başına tökülürdü. Töküldülər... Töküldülər... Hacıyatmazın başı ağırlaşdı. Həyatında ilk dəfə başını yerə qoyub yuxuladı. Və yatdı...

Saçlı həyətin ortasında dayanmışdı. Qar dağı yüksəlirdi. Çəngəllər daha yerdə dayanıb qartopuları yükləyə bilmirdilər. Biri filin xortumunun üstündə idi, biri timsahın burnunun, biri ipatdı kəndirinin başına dırmaşmışdı. Saçlı nəğmə oxuyurdu:

Al, biri də gəldi, bax
Qartopular ağappaq.
Göyə qalxır Qar dağı
Qartopudur sol-sağı.
Gözlə, yemiş dilimi
Uzadacam əlimi.
Yeyəcək səni Aysu
Çin olacaq arzusu.



Hacıyatmaz isə keşikdə yatmışdı. Yuxusunda görürdü ki, göyün tən ortasında bir yemiş dilimi var. Yerdən yemiş diliminə qədər ağappaq bir dağ ucalıb. Dağın zirvəsində fil dayanıb. Fil xortumunu uzadıb yemiş dilimini götürür. Onu yanından asdığı çantasına qoyur. O saat hər tərəf qaranlıq olur. Göz-gözü görmür. Hamı qışqırır: «Kömək edin!» Aysunun səsi gəlir: «Ay uşaqlar, siz nə etdiniz?! O yemiş dilimi deyil, Aydır. Sizin səhviniz üzündən bütün dünya qaranlıq olub. Axı Ay işıq saçmaq üçündür... »

Külək əsdi. Hacıyatmazın başındakı qar dənələri uçuşdular. Hacıyatmaz o saat yuxudan durdu:

– Mən yatmışdım? Axı hacıyatmazlar yatmırlar. Nə anam yatıb, nə atam, nə babam, nə də ki, nənəm...

Birdən gördüyü yuxu yadına düşdü:

– İndicə Ayı götürəcəklər. Hər yer qaranlıq olacaq. Qaçım Aysunu köməyə çağırım.

Hacıyatmaz Aysunun çarpayısına çatdı. Onu silkələyib oyatdı:

– Aysu, dur. Hər yer qaranlıq olmamış oyuncaqları çağırmaq lazımdır. Dur... Oyuncaqlar Aya çatmağa az qalıblar.

Aysu oyandı:

– Aya?!





Aysu ilə Hacıyatmaz Qar dağının ətəyində idilər. Dağ o qədər hündür idi ki, oyuncaqlar görünmürdülər. Aysu dedi:

– Dağı aşmalıyıq...

Dağ hündür və sürüşkən idi. Onlar güclə qalxırdılar. Aradabir sürüşüb yıxılır, sonra qalxıb yollarına davam edirdilər. Zirvəyə çatmağa tələsirdilər. Elə bu vaxt yolda üzüüstə düşmüş çəngələ rast gəldilər. O, soyuqdan donmuşdu və yolda yıxılıb qalmışdı. Aysu onu gödəkcəsinin cibində gizlətdi.



Birdən Hacıyatmaz qışqırdı:

– Aysu, biz artıq zirvədəyik. Ora bax...

Aysu zirvədən aşağı boylandı. Oyuncaqlar fındıq boyda görünürdülər.

Aysu kövrəldi:

– Yazıq oyuncaqlarım. Soyuqdan donublar, yəqin. Tez düşək, Hacıyatmaz, onları qucağıma alıb isindirməliyəm.

Saçlı yenə hamını sıraya düzmüşdü. Əmr verirdi:

– Fil, dağa qalxmağa hazır ol!





Fil xortumunu
qaldırdı:
– Həmişə hazır!
Aysu ilə Hacıyatmaz qışqırdılar:
– Dayanın. Ey... Bir dəqiqə dayanın...
Aysu ilə Hacıyatmaz sürüşüb oyuncaqların yanına düşdülər. Aysu oyuncaqlarını bağrına basdı. Onlara başa saldı ki, Ay səmada yemiş dilimi kimi, qutab kimi, qoğal kimi də görünə bilər. Təzə Ay yemiş diliminə bənzəyir, bir az sonra böyüyüb qutab kimi olur. Ay yepyekə olanda isə qoğala oxşayır...

# "Təhsil" nəşriyyatından balalara töhfə!





Redaktor: **Gülər Mehdiyeva**
Korrektor: **Ülkər Şahmuradova**
Rəssam: **Nailə Cəfər**
Kompyuter tərtibatı: **Təhmasib Mehdiyev**

***Sevinc Nuruqızı***

N89 Aysu və Ay.
Bakı, "Təhsil", 2009. 12 səh.

N $\frac{4803060201}{053}$ 2009



© "Təhsil", 2009

***Müəllif hüquqları qorunur. Nəşriyyatın xüsusi icazəsi olmadan bu kitabı çap etdirmək və yaymaq qadağandır.***



Çapa imzalanmışdır: 17.03.2009.
Kağız formatı 60x84 1/8.
Sifariş 2. Qiyməti müqavilə ilə.

"Təhsil" Nəşriyyat-Poliqrafiya MMC
Bakı, AZ 1052, F.Xoyski küç., 121A


Sevinc Nuruqızı
Aysu və Ay

Evdə hamı yatdı. Təkcə gəlincik Saçlıdan başqa. Saçlı pəncərədən Aya baxırdı:

– Yemiş dilimi işıqlıdır. Yəqin, həm də dadlıdır. Aysu onu yemək istəyir.

Saçlı yerə hoppandı. Silkələyib bütün oyuncaqları oyatdı:

– Uşaqlar, durun. Aysu yemiş dilimi istəyir. Biz səmaya qalxıb, onu dostumuza gətirməliyik.

Hamı oyandı. Ayı, ördək, dovşan, tülkü, top, ipatdı kəndiri, fırfıra, rəngli karandaşlar, fincanlar, nəlbəkilər, çəngəllər, tikiş maşını, fil, timsah, Hacıyatmaz, pianino, uzunsaç gəlinciklər, diyircəkli araba, çəhrayı telefon, təyyarə. Aysunun bütün oyuncaqları durmuşdu. Ayı qış yuxusundan oyandığı üçün çox qəzəbli idi:

– Mən düz üç ay yatmalıyam. Qış yuxusuna getmişdim. Məni oyatdılar...

Saçlı onları tələsdirdi:

– Tez olun. Sonra yatarıq. Əlcəkləri geyinin, papaqları qoyun... Getdik.

Hər tərəf ağappaq qar idi. Saçlının təklifi ilə hamı cərgəyə düzüldü. Sıranın əvvəlində Hacıyatmaz, sonunda isə balaca qırmızı karandaş dayanmışdı. Saçlı əmr etdi:



– Sıraya düzülün! Tərpənməyin! Fikirləşin... Yemiş dilimini necə götürmək olar?

Timsah dilləndi:

– Mən tapdım. Kim uça bilirsə, o da gətirər. Məsələn, quş.

Quş sınıq qanadına baxdı:

– Aysu qanadımı sındırıb. Quşlar tək qanadla uça bilməzlər. Onu, ancaq fil xilas edə bilər. Xortumuna su doldurub yuxarı atar. Su da yemiş dilimini qopardıb salar.



Fil isti yerlərdə yaşamağa adət elədiyindən soyuqdan göyərmişdi:

– Aysu mənim dostumdur. Ona kömək etmək istəyərdim. Amma mümkün deyil. Çünki Aysu xortumuma tennis topu tıxayıb. Xortumum su püskürmür. Yemiş dilimini yalnız təyyarə gətirə bilər.

Təyyarə kövrəldi:

– Aysu burnumu qırıb. Burnum olmasa, mən havanı yarıb uça bilmərəm...

Pianino salamat qalmış dillərini tərpətdi:

– Daram...dar...ra...ram... Tapdıq... Fırfıra fırlanıb qarı bir yerə sovursun. Biz çoxlu qartopu düzəldək. Çəngəllər qartopuları üst-üstə yığsınlar. Olsun yekə bir dağ. Sonra fil bu dağın zirvəsinə çıxsın, xortumunu uzadıb yemiş dilimini götürsün. Qoyaq nimçəyə. Aparaq, Aysu yesin.



Hamı işləyirdi. Hacıyatmaz isə keşikdə durmuşdu. Yemiş dilimini oğurlamasınlar deyə, gözlərini göyə zilləmişdi. Birdən qar yağmağa başladı. Qar dənələri Hacıyatmazın başına tökülürdü. Töküldülər... Töküldülər... Hacıyatmazın başı ağırlaşdı. Həyatında ilk dəfə başını yerə qoyub yuxuladı. Və yatdı...

Saçlı həyətin ortasında dayanmışdı. Qar dağı yüksəlirdi. Çəngəllər daha yerdə dayanıb qartopuları yükləyə bilmirdilər. Biri filin xortumunun üstündə idi, biri timsahın burnunun, biri ipatdı kəndirinin başına dırmaşmışdı. Saçlı nəğmə oxuyurdu:

Al, biri də gəldi, bax
Qartopular ağappaq.
Göyə qalxır Qar dağı
Qartopudur sol-sağı.
Gözlə, yemiş dilimi
Uzadacam əlimi.
Yeyəcək səni Aysu
Çin olacaq arzusu.



Hacıyatmaz isə keşikdə yatmışdı. Yuxusunda görürdü ki, göyün tən ortasında bir yemiş dilimi var. Yerdən yemiş diliminə qədər ağappaq bir dağ ucalıb. Dağın zirvəsində fil dayanıb. Fil xortumunu uzadıb yemiş dilimini götürür. Onu yanından asdığı çantasına qoyur. O saat hər tərəf qaranlıq olur. Göz-gözü görmür. Hamı qışqırır: «Kömək edin!» Aysunun səsi gəlir: «Ay uşaqlar, siz nə etdiniz?! O yemiş dilimi deyil, Aydır. Sizin səhviniz üzündən bütün dünya qaranlıq olub. Axı Ay işıq saçmaq üçündür... »

Külək əsdi. Hacıyatmazın başındakı qar dənələri uçuşdular. Hacıyatmaz o saat yuxudan durdu:

– Mən yatmışdım? Axı hacıyatmazlar yatmırlar. Nə anam yatıb, nə atam, nə babam, nə də ki, nənəm...
Birdən gördüyü yuxu yadına düşdü:

– İndicə Ayı götürəcəklər. Hər yer qaranlıq olacaq. Qaçım Aysunu köməyə çağırım.

Hacıyatmaz Aysunun çarpayısına çatdı. Onu silkələyib oyatdı:

– Aysu, dur. Hər yer qaranlıq olmamış oyuncaqları çağırmaq lazımdır. Dur... Oyuncaqlar Aya çatmağa az qalıblar.

Aysu oyandı:

– Aya?!





Aysu ilə Hacıyatmaz Qar dağının ətəyində idilər. Dağ o qədər hündür idi ki, oyuncaqlar görünmürdülər. Aysu dedi:

– Dağı aşmalıyıq...

Dağ hündür və sürüşkən idi. Onlar güclə qalxırdılar. Aradabir sürüşüb yıxılır, sonra qalxıb yollarına davam edirdilər. Zirvəyə çatmağa tələsirdilər. Elə bu vaxt yolda üzüüstə düşmüş çəngələ rast gəldilər. O, soyuqdan donmuşdu və yolda yıxılıb qalmışdı. Aysu onu gödəkcəsinin cibində gizlətdi.



**Birdən Hacıyatmaz qışqırdı:**

**– Aysu, biz artıq zirvədəyik. Ora bax...**

**Aysu zirvədən aşağı boylandı. Oyuncaqlar fındıq boyda görünürdülər.**

**Aysu kövrəldi:**

**– Yazıq oyuncaqlarım. Soyuqdan donublar, yəqin. Tez düşək, Hacıyatmaz, onları qucağıma alıb isindirməliyəm.**

**Saçlı yenə hamını sıraya düzmüşdü. Əmr verirdi:**

**– Fil, dağa qalxmağa hazır ol!**





Fil xortumunu
qaldırdı:
– Həmişə hazır!
Aysu ilə Hacıyatmaz qışqırdılar:
– Dayanın. Ey... Bir dəqiqə dayanın...
Aysu ilə Hacıyatmaz sürüşüb oyuncaqların yanına düşdülər. Aysu oyuncaqlarını bağrına basdı. Onlara başa saldı ki, Ay səmada yemiş dilimi kimi, qutab kimi, qoğal kimi də görünə bilər. Təzə Ay yemiş diliminə bənzəyir, bir az sonra böyüyüb qutab kimi olur. Ay yepyekə olanda isə qoğala oxşayır...



## "Təhsil" nəşriyyatından balalara töhfə!




Redaktor: **Gülər Mehdiyeva**
Korrektor: **Ülkər Şahmuradova**
Rəssam: **Nailə Cəfər**
Kompyuter tərtibatı: **Təhmasib Mehdiyev**

***Sevinc Nuruqızı***

N89 Aysu və Ay.
Bakı, "Təhsil", 2009. 12 səh.

N $\frac{4803060201}{053}$ 2009

© "Təhsil", 2009

***Müəllif hüquqları qorunur. Nəşriyyatın xüsusi icazəsi olmadan bu kitabı çap etdirmək və yaymaq qadağandır.***

Çapa imzalanmışdır: 17.03.2009.
Kağız formatı 60x84 1/8.
Sifariş 2. Qiyməti müqavilə ilə.

"Təhsil" Nəşriyyat-Poliqrafiya MMC
Bakı, AZ 1052, F.Xoyski küç., 121A